

# Sənətinin vurğunu

*İnsanın şəxsiyyət kimi formalaşması onun cəmiyyətlə, yaşadığı mühitlə sıx əlaqəsindən çox asılıdır...*

*Əsl vətəndaş, əsl şəxsiyyət kimi nüfuz qazanmaq istəyən şəxs öz peşəsi, öz əməli ilə xalqına, millətinə xidmət etməlidir.*

**Haqqında söz açacağımız insan da belələrindəndir. O öz yüksək insani keyfiyyətləri, geniş dünyagörüşü, zəngin biliyi, böyük cəsarəti, qabiliyyəti, natiqliyi, öz peşəsinə vurğunluğu və həyatsevərliyi, təşkilatçılığı ilə fərqlənən və ömrünün 31 ilini özünə həmdəm saydığı kitabların arasında keçirən, onun təbliğinə həsr edən Beyləqan Rayon MKS-nin Sevil Qazıyeva adına Gənclər kitabxanasının müdiri Zabitə xanım Qafarovadır.**

Qafarova Zabitə Məhəmmədəli qızı 1956-cı ildə Beyləqan rayonunun Bünyadlı kəndində dünyaya göz açmışdır. 1973-cü ildə Beyləqan rayonunun Xalaç kənd orta məktəbini əla qiymətlərlə bitirmişdir.

Orta məktəbdə ən çox sevdiyi fənn riyaziyyat fənni olduğundan sənədlərini Bakı Dövlət Universitetinin riyaziyyat fakültəsinə verib, lakin müsabiqədən keçə bilməyib. Bununla belə ruhdan düşmədi, istehsalatda çalışa-çalışa kitablardan ayrılmadı. Kitablara olan məhəbbəti onu 1977-ci ildə Bakı Mədəni Maarif məktəbinə gətirib. Zabitə burada da öz biliyi, bacarığı və tərbiyəsi ilə müəllim və tələbə kollektivinin sevimlisi olub. O, yaxşı oxumaqla yanaşı, bütün ictimai işlərdə də fəal iştirak edirdi. Ona texnikumda qalıb işləmək təklifi olunsa da, bu təklifi qəbul etməyib, texnikumu fərqlənmə diplomu ilə bitirərək, öz doğma kəndlərinə qayıdıb.

1980-ci il fevral ayında işə başladığı ilk gündən kitabxananın işində əsaslı dönüş yaratdı. Kəndin fəallarını, ziyalılarını, müəllim və şagirdlərinin qüvvəsini birləşdirərək müxtəlif kütləvi tədbirlər keçirməyə başladı. Az müddətdə kitabxana kənd adamlarının sevimli yerinə çevrildi.

Bu illər ərzində ali təhsil almaq arzusu Zabitə Qafarovanı bir an belə rahat buraxmır. Odur ki, 1983-cü ildə Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinə daxil oldu. Zabitə xanım universiteti də fərqlənmə diplomu ilə bitirib öz doğma rayonuna qayıtdı. Beyləqan Rayon Sevil Qazıyeva adına Gənclər kitabxanasının müdiri vəzifəsinə təyin edildi. Zabitə xanım rəhbərlik etdiyi kitabxanada öz işçilərinə bilik və təcrübəsini həvəslə öyrədir. Hər bir gənc oxucuya fərdi yanaşaraq əvvəlcə onun oxucu marağını öyrənməyi və onlara kitab seçməkdə düzgün istiqamət verməyi vacib bilir. Zabitə Qafarova əsas diqqəti gənclərin vətənpərvərlik tərbiyəsi işinə, dünyagörüşünün formalaşmasına yönəldir. O bunun səbəbini belə izah edir:

- Bu gün dövlətimiz misli görünməmiş işlər görür, vəzifələr yerinə yetirir. Kitabxanalar isə ideoloji mərkəzdir. Bunun üçün biz kitabxanaçıların üzərinə məsuliyyətli vəzifələr düşür. Bugünkü ictimai-siyasi şərait, zaman kitabxanalarda ideya-tərbiyə işinin məzmununu, forma və metodlarını təzələməyi, zənginləşdirməyi tələb edir. Gənclərimizin bu qarışıq dünyada baş verən ictimai-siyasi hadisələri düzgün qiymətləndirmələri üçün, torpaqlarımızın bir hissəsinin işğal altında olmasını nəzərə alaraq onlarda vətənpərlik hisslərini gücləndirmək və onların əxlaqi-mənəvi tərbiyəsi, hərtərəfli inkişafları üçün biz kitabxanaçılar bildiyimiz təbliğatın bütün forma və metodlarından istifadə etməliyik. Elm və texnika nə qədər inkişaf etsə də, kompüter əsrində yaşasaq da, kitabxanalara və kitaba olan oxucu tələbatı daima qalmaqdadır. Ulu öndərimiz gözəl demişdir: "Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir".

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının ölkəmizdə kitabxana işinin hərtərəfli inkişafı sahəsində imzaladığı sərəncamlar, mədəniyyət işçilərinə göstərdiyi diqqət və qayğı bütün kitabxanaçılar kimi Zabitə Qafarovanı da öz işinə daha məsuliyyətlə yanaşmağa sövq edir. Bu baxımdan o, kitabxana işini planlaşdırarkən "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın tələblərinə istinad edir. Bu məqsədlə son illər kitabxananın fondunu müasir tələblərə uyğun ədəbiyyatlarla zənginləşdirir, kitabxanadan uzaq düşmüş gəncləri kitabxanaya cəlb etməyə çalışır. Zabitə Qafarova kitabxana tədbirlərini əsasən orta məktəbin müəllim və şagird kollektivi, Beyləqan Rayon Gənclər İdarəsi, Mədəniyyət Sarayının kollektivi, "Sözün sehri" ədəbi məclisi üzvlərinin köməyi ilə kitabxana və orta məktəblərdə təşkil edir.



Burada elm və mədəniyyət xadimlərinin yubiley mərasimləri ilə yanaşı tarixi-əlamətdar günlərin qeyd edilməsinə önəm verilir.

Zabitə Qafarovanın kitabxana sahəsindəki əməyi hələ sovet dövründə dövlətimiz tərəfindən yüksək dəyərləndirilmişdir. O, SSRİ Mədəniyyət Nazirliyinin fəxri fərman və diplomları, Azərbaycan Mədəniyyət Nazirliyinin fəxri fərmanı və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

Ölkəmiz müstəqillik qazandıqdan sonra da onun əməyi yüksək qiymətləndirilmişdir. Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı İrşad Əliyev onu Fəxri fərmanla təltif etmişdir.

**Zabitə Qafarova deyir ki, bu gün dövlətimizin kitaba, kitabxanalara və kitabxanaçılara qarşı olan qayğısı və diqqəti biz kitabxanaçıları həm sevindirir, həm də öz işimizə qarşı məsuliyyətimizi daha da artırır. Mən də bir kitabxanaçı kimi dövlətimizin və zamanın tələblərinə uyğun iş qurmaq üçün bütün bilik, təcrübə və bacarığımı sərf etməyə çalışıram...**

**● Lalə HACIYEVA,**
***zona müxbiri***